# Naxçıvan: doğma diyar





## *Muxtar Respublikanın yaradılmasından 98 il ötür*

**Naxçıvan şəhərinin ilk dəfə adı çəkilən və bizə məlum olan ən qədim məxəz eramızın II əsrində yaşamış yunan alimi Klavdi Ptolomeyin "Coğrafiya"sıdır. O, Naxçıvanın hələ eradan əvvəl II əsrdə şəhər olduğunu bildirir.**

K.Ptolomey yazır: "Naksuana geniş ərazisi olan Vaspuraqanın mərkəzidir. 37 nahiyədən ibarət olan bu ölkənin bir nahiyəsini də Naksuana təşkil edir".

Professor Teymur Bünyadovun qənaətinə görə, Naxçıvan təxminən 3.500 il bundan əvvəl şəhər tipli bir yaşayış məntəqəsi olmuşdur.

Naxçıvan tez-tez dağıntılara məruz qalmış, romalıların, parfiyalıların döyüş meydanı olmuş, XX əsrdə isə erməni daşnaklarının ağlasığmaz vəhşiliklərinin canlı şahidinə çevrilmişdir.

Azərbaycandan ayrı salınmış bu qədim diyar ermənilərin torpaq iddialarının başladığı gündən blokadaya salındı. Bu çətin günlərdə Naxçıvana rəhbərlik etməyə başlayan Heydər Əliyev bölgənin, onun insanlarının əsl xilaskarı oldu. Bölgə dirçəldi, insanlar rahat nəfəs aldı. Ulu öndərin bu diyar barədə öz planları vardı və onu Naxçıvan Ali Məclisinə rəhbərlik etdiyi müddətdə yerinə yetirməyə çalışırdı. O deyirdi: "Mən istəyirəm ki, mənim arzum, istəklərim Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin". Bu gün ümummilli liderin planları Naxçıvanda uğurla həyata keçirilir, bütün sahələr yüksələn xətlə inkişaf etdirilir. Bu nailiyyətlərin hər biri isə ulu öndərin siyasi kursunun davam etdirilməsi nəticəsində qazanılıb.

Tarixi vərəqlədikcə bu qədim Azərbaycan torpağının faciəsi, onun qəhrəman insanlarının mübarizəsi, tarixi ədalətsizliklər birər-birər göz önünə gəlir. 1918-1919-cu illərdə erməni daşnaklarının Azərbaycan xalqının başına açdıqları bəlalardan, o cümlədən Andranikin Naxçıvanda törətdiyi qətllər barədə həyəcansız danışmaq mümkün deyil.

1828-ci ildə Türkmənçay müqaviləsinə əsasən Naxçıvan çar Rusiyasının tərkibinə qatılmışdı. Bundan sonra çar hökuməti İrandan və Şərqi Anadoludan 10 minlərlə erməni ailəsini Naxçıvan xanlığı ərazisinə köçürmüş və Naxçıvanın demoqrafik quruluşu kəskin surətdə dəyişdirilmişdi. Naxçıvan ərazisi də Azərbaycanda yaradılmış erməni vilayətinin tərkibinə daxil edilmişdi.

1841-ci ildə Naxçıvan qəza mərkəzinə çevrildi. Çarizmin 1871-ci ildə həyata keçirdiyi şəhər islahatı Azərbaycanın digər şəhərləri kimi, Naxçıvan şəhərinə də tətbiq olundu. 1917-ci ilin sonlarında ermənilərin Naxçıvana qarşı ərazi iddialarının daha da genişlənməsi 1918-ci ilin əvvəllərində real təhlükəyə çevrildi, nizami daşnak silahlı dəstələri türklərlə mübarizə adı altında Naxçıvanın bir çox kəndlərini dağıdaraq dinc əhaliyə divan tutdu.

1918-ci il mayın 26-da Gürcüstan, mayın 28-də Azərbaycan və noyabrda Ermənistan öz müstəqilliklərini elan etdikdən sonra Ermənistanın daşnak hökuməti Naxçıvanı özünə ilhaq etmə siyasəti yeritməyə başladı. Yalnız Türk əsgərlərinin bölgəyə göndərilməsi və yerli əhalinin fəal müqaviməti Naxçıvanın ermənilərin hakimiyyəti altına düşməsinin qarşısını aldı. Mudros barışığına əsasən, 1918-ci ildə Türkiyə öz qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu.

1918-ci ilin noyabrında bölgədə Araz-Türk Respublikası yaradıldı, lakin 1919-cu ilin əvvəlində Naxçıvanı tutan ingilislər bu gənc respublikanı tanımadılar. Üstəlik, xalqın rəyini soruşmadan Naxçıvan və Şərur bölgəsinin Ermənistan ərazisi olduğunu elan etdilər. Beləliklə də Araz-Türk Respublikası süquta uğradı. 1919-cu ilin iyulunda daşnaklar ingilislərin köməyi ilə Naxçıvanı ələ keçirdilər, bir müddət sonra ingilislərin Naxçıvanı tərk etməsindən istifadə edən Naxçıvan Milli Komitəsinin hərbi dəstələri daşnakların nizami qoşununu Naxçıvandan qovmağa müvəffəq oldular.

1920-ci il aprelin 28-də Bakıda, iyulun 28-də Naxçıvanda Sovet hakimiyyətinin elan edilməsi, Azərbaycan Sovet Sosialist Respublikasının yaradılması, Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi və Naxçıvanın Azərbaycandan ayrı düşməsi Naxçıvanın muxtariyyət məsələsini gündəmə gətirdi. 1920-ci il noyabrın 29-da Ermənistanda Sovet hakimiyyəti elan edildikdən sonra Ermənistan Sovet Sosialist Respublikası hökuməti də Naxçıvanı özünə ilhaq etmək üçün dəfələrlə cəhd göstərdi. Lakin 1921-ci ilin yanvarında Naxçıvan əhalisinin 90 faizi muxtariyyət statusunda Azərbaycan SSR-ə birləşməyə səs verdi. Naxçıvan yeni yaradılan Naxçıvan SSR-in, Naxçıvanın muxtariyyət statusunu qəti müəyyənləşdirən Moskva və Qars müqavilələri imzalandıqdan (1921) sonra, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının paytaxtı oldu.



Böyük İpək Yolunun üzərində yerləşən, Şərqin qapısı adlandırılan Naxçıvan 2018-ci ildə İslam Mədəniyyətinin paytaxtı elan edilib. Yaxın Şərqdə nadir memarlıq abidələri ilə tanınan Naxçıvan qədim yaşayış məskənləri, siklop tikililəri, maddi mədəniyyət nümunələri, qalaları, istehkamları, inşaat materialları, tikinti texnikası və bir sözlə, öz zənginliyi ilə də diqqəti cəlb edir.

Naxçıvanda memarlıq sənəti ən yüksək səviyyəyə çatmış, Naxçıvan memarlığının özünəməxsus orijinal sənət üslubu yaranmışdır. Bu üslub sonralar geniş yayılaraq "Naxçıvan memarlıq məktəbi" adı ilə tarixə düşmüşdür. Bu məktəb bəşəriyyətə Əcəmi Əbubəkir oğlu Naxçıvani, Əmirəddin Məsud Naxçıvani, Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani kimi memarlar, sənətkarlar vermişdir.

Naxçıvan şəhəri muxtar respublikanın siyasi mərkəzi olmaqla yanaşı, eyni zamanda, mədəni mərkəzidir. Burada 21 muzey və muzey tipli müəssisə, bir muzey filialı fəaliyyət göstərir.

Şəhərdə yerləşən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Ədəbiyyat Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, Naxçıvan Dövlət Xalça Muzeyi, Hüseyn Cavidin ev-muzeyi, Cəlil Məmmədquluzadənin ev-muzeyi, Cəmşid Naxçıvanskinin ev-muzeyi, Bəhruz Kəngərlinin ev-muzeyi, Heydər Əliyevin ev-muzeyi və son dövrlərdə yaradılmış Açıq Səma Altında muzey maraqlı eksponatları ilə diqqət çəkir.

Naxçıvan şəhərində yerləşən üç tarixi memarlıq abidəsi də muzey kimi fəaliyyət göstərməkdədir. Bunlardan biri XII əsrdə Əcəmi Naxçıvaninin inşa etdiyi Möminə Xatun türbəsidir. Türbə Azərbaycan Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə inşa edilmişdir. Yusif Küseyir oğlu türbəsi də eyni memar tərəfindən 1162-ci ildə inşa edilib. Üçüncü abidə isə Hüseyn Cavidin məzarı üstündə ucaldılmış Hüseyn Cavid türbəsidir.

Şəhərdə 2004-cü ildən Naxçıvan Beynəlxalq Hava Limanı fəaliyyət göstərir. Hava Limanından Azərbaycanın Gəncə və Bakı şəhərlərinə, Türkiyənin İstanbul şəhərinə və eləcə də əksinə marşrutlar vardır. Həmçinin 2021-ci ildən etibarən Naxçıvan-Zaqatala marşrutu üzrə yeni reys həyata keçirilir.

Muxtar Respublikada dəmir yolu nəqliyyatı mühüm əhəmiyyət kəsb edir. Araz çayı boyunca Bakı-İrəvan dəmir yolu xəttinin 190 kilometrə qədəri Muxtar Respublika ərazisindən keçir. Bu dəmir yolu xəttinin Culfadan keçən hissəsindən Təbriz şəhəri istiqamətində qol ayrılır. Hazırda Naxçıvan-Ordubad və Naxçıvan-Şərur istiqamətində daxili sərnişindaşıma xidməti göstərilir. Bundan başqa, Naxçıvan-Təbriz və əks istiqamətdə sərnişin və yük qatarlarının hərəkəti üçün İran İslam Pespublikası ilə müqavilə bağlanmışdır.

Naxçıvan MR-in paytaxtı kimi, Azərbaycanın mühüm maarif, elm və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir. Burada hələ orta əsrlərdə məktəb və mədrəsələr mövcud idi.

Şəhərdə AMEA-nın elmi mərkəzi, Respublika Dövlət Elm və Texnika Komitəsinin Naxçıvan elm və texnika mərkəzi, klub və kitabxanalar, 3 teatr, filarmoniya fəaliyyət göstərir.

Naxçıvan bu gün də inkişaf edir, müasirləşir özünün qədimliyini, tarixiliyini isə qoruyub saxlayır.

2021-ci il mayın 10-da Naxçıvana səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev muxtar respublikanın ümumi inkişafını xarakterzie edərək demişdir: "Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**